## ŞIXƏLİ QURBANOVUN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, yazıçı, dramaturq, şair və filoloq- alimi Şıxəli Qurban oğlu Qurbanov 1925-ci il avqust ayının 16-da Bakıda qulluqçu ailəsində anadan olmuşdur.***

| | |
|---|---|
| **1942** | Bakı şəhər 9 saylı orta məktəbi bitirdikdən sonra cəbhəyə yollanmışdır. O, Böyük Vətən müharibəsində Leninqraddan (Sankt-Peterburq) Almaniyayadək döyüş yolu keçmiş, cəbhədə çavuş kimi vuruşaraq göstərdiyi şücaət və igidliyə görə müharibə orden və medalları ilə təltif olunmuşdur. |
| **1950** | Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. |
| | Elmi işə marağı onu aspiranturaya, elmi-tədqiqat fəaliyyətinə yönəldir və təhsilini başa vurduqdan sonra həmin ali məktəbin aspiranturasına daxil olmuş, eyni zamanda rus ədəbiyyatı müəllimi işləmişdir. |
| **1954-1955** | Azərbaycan KP Bakı Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, |
| **1955-1957** | Bakının 26 Bakı komissarı (indiki Səbail) rayonu partiya komitəsinin birinci katibi vəzifəsində işləmişdir. |
| **1956** | “A.S.Puşkin və Azərbaycan poeziyası” mövzusunda dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almış, institutda baş müəllim, dosent vəzifələrində çalışmışdır. |
| **1957** | Yazdığı bu elmi işi ilk kitabı kimi çap olunmuşdur. |
| **1957-1961** | Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdir. |
| **1958-1961** | “Rəis məşğuldur”, “Əcəb işə düşdük”, “Özümüz bilərik”, “Olmadı elə, oldu belə”, “Sənsiz” pyeslərini, “Bahadır və Sona” librettosunu qələmə alıb. |
| **1962** | İlk yazdığı bədii əsər "Əcəb işə düşdük" komediyası çap olunub. |
| **1963** | İlk məlum nəsr əsəri “Telefon zəngləri” hekayəsi “Kirpi” jurnalında nəşr edilib. |
| **1965** | “XIX əsr Azərbaycan rus ədəbi əlaqələrinin inkişaf mərhələləri” doktorluq dissertasiyasını müdafiə edib, elmlər doktoru dərəcəsi alıb. |
| **1966** | “Milyonçunun dilənçi oğlu” komediyası uzun müddət teatr səhnələrində oynanılıb. |
| | Bundan əlavə, lirik şeirləri, poema, hekayə və tənqidi məqalələri mətbuatda müntəzəm çap edilib. |
| | Onun təşəbbüsü ilə respublika ərazisində 40 il qadağan edilmiş Novruz bayramı, xüsusilə Bakı şəhərində böyük təntənələrlə qeyd olunub. |

| | |
|---|---|
| **1966-1967** | Azərbaycan KP MK katibi və büro üzvü seçilib. |
| **1967** | Mayın 24-də Şıxəli Qurbanov diş müalicəsi zamanı müəmmalı şəkildə dünyasını dəyişir və dost bildiyi həkim isə hadisədən dərhal sonra pəncərədən qaçaraq gizlənir. Rəsmi versiyada ölüm "anafilaktik şok" kimi göstərilsə də, ailəsi və bir çox tarixçilər bu hadisəni siyasi sifarişli sui-qəsd kimi qiymətləndirirlər.<br><br>Mayın 27-də Şıxəli Qurbanov müəmmalı ölümü ilə əbədiyyətə qovuşur və Bakı şəhərində Fəxri xiyabanda böyük izdihamla dəfn olunur.<br><br>Ölümündən sonra Musiqili Komediya Teatrına və Bakı küçələrindən birinə Şıxəli Qurbanovun adı verilir. |